İlə yekun vurulur

# Köhnə ilin yeni ünvanları







## Zaqatala

Noyabrın 4-də Zaqatala-Danaçı-Aşağı Çardaqlar avtomobil yolu əsaslı şəkildə yenidən qurulandan sonra açılıb. Ümumi uzunluğu 28 kilometr, eni 10 metrdir. Ərazidən asılı olaraq onun 6,5 metrini asfalt örtük, 3-4 metrini çiyin təşkil edir. Avtomobil yoluna 10 santimetr qalınlıqda 2 qatdan ibarət asfalt-beton döşənib. Yolun əhəmiyyətini artıran əsas amil onun 12 yaşayış məntəqəsini birləşdirməsidir. Bu isə 15,6 min insanın rahatlığının təmin olunması deməkdir.



* * *

Həmin gün Zaqatalada Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən “Qızılgül” körpələr evi-uşaq bağçasının da açılışı olub. Ümumi sahəsi 1280 kvadratmetr olan bina 100 uşaq üçün nəzərdə tutulub. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərir. Burada 1 yaşından 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Binada müəllimlər, tibb, qəbul, yataq, kompüter otaqları, idman, oyun, musiqi zalları yaradılıb. Körpələr evi-uşaq bağçasında 28 pedaqoji işçinin çalışması nəzərdə tutulub.



* * *

Noyabrın 4-də Zaqatala şəhərində Heydər Əliyev Mərkəzi də açılıb. Ümumi sahəsi 2765 kvadratmetr olan mərkəzdə 350 yerlik konfrans zalı, vətəndaşlıq aktlarının qeydiyyatı otağı, kinozal, kulinariya və rəsm otaqları, heykəltəraşlıq studiyası, poliqrafiya emalatxanası fəaliyyət göstərir. Mərkəzdəki elektron kitabxana, arxiv, virtual sinif və kompüter otaqları, dizayn və xalq sənətkarlığı studiyaları, xarici dil dərnəyi və 44 nəfərlik dairəvi konfrans zalı sakinlərin ixtiyarına verilib.



* * *

Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni inşa olunan binasının açılışı da həmin gün olub. 2012-ci il may ayının 7-də ölkənin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində filialın binası tamamilə qəzalı vəziyyətə düşmüşdü. Az sonra dövlət başçısının tapşırığına əsasən filial üçün yeni binanın tikintisinə başlanıldı.

Təzə bina 6 min 700 kvadratmetr ərazini əhatə edir. Burada linqafon otağı, kompüter mərkəzi tələbələrin ixtiyarına verilib. Təhsil ocağı üçün otaqlar, auditoriyalar zəruri avadanlıqlarla təchiz olunub. Tədris prosesində müasir informasiya-kommunikasiya sistemlərindən istifadəyə diqqət yetirilib. Filialın yeni binasında kitabxana, akt zalı və muzey fəaliyyət göstərir, tələbələr tibb və iaşə xidmətlərindən istifadə edirlər.





* * *

Bu tədbirlərdə iştirak edən dövlət başçısı səfər zamanı Yevlax-Balakən magistral yolunun Yuxarı və Aşağı Tala kəndlərinin, həmçinin Zaqatala şəhərinin ərazisindən keçən hissəsinin genişləndirilməsi və abadlaşdırılması ilə də tanış olub. Əsaslı təmir zamanı Yuxarı Tala kəndinə girişdə yol qovşağı inşa edilib, ərazi abadlaşdırılıb. Ümumilikdə 4 kilometr uzunluğu olan yolda görülən işlər çərçivəsində müasir dayanacaqlar qoyulub, işıqlandırma sistemi quraşdırılıb.



## Şəki

Noyabrın 4-də 840 şagirdlik Qoxmuq kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Sahəsi 5277 kvadratmetr olan bina üçmərtəbəlidir. 108 müəllimin çalışdığı məktəbdə 42 sinif otağı, müasir standartlara cavab verən və əyani vəsaitlərlə təchiz olunan fənn laboratoriyaları, informatika kabineti var. Hərbi kabinetdə şagirdlərin hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Məktəbin kitabxanası dərs vəsaitləri ilə təmin olunub, idman zalında müasir qurğular quraşdırılıb. Binanın 240 yerlik akt zalında isə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür imkan var. Məktəbin binasının ətrafında geniş yaşıllıq zolağı salınıb, həyətyanı sahədə idman meydançası yaradılıb və idman qurğuları quraşdırılıb.





* * *

Həmin gün Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin yenidənqurmadan sonra açılışı da olub. Uzunluğu 35 kilometr olan yolun 26 kilometri Şəki rayonunun, 9 kilometri Qax rayonunun ərazisinə düşür. Bu avtomobil yolu Şəki və Qax şəhərləri arasında nəqliyyat əlaqələrinin yaxşılaşmasına, 77 kilometrlik məsafənin 42 kilometr qısalmasına imkan verir. Yolun əsas üstünlüyü isə onun 39 min nəfər əhalinin yaşadığı 22 yaşayış məntəqəsini əhatə etməsidir. Yenidənqurma işləri zamanı yolun üzərində 20 körpü, uzunluğu 1074 metr olan suötürücü borular, 12 avtobus dayanacağı tikilib, 176 yol nişanı quraşdırılıb.



* * *

Şəki Məhkəmə Kompleksinin yeni inzibati binası da noyabrın 4-də istifadəyə verilib. Ümumi sahəsi 19,8 min kvadratmetr olan beşmərtəbəli kompleksdə Şəki Apelyasiya Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi, Şəki Ağır Cinayətlər Məhkəməsi və Şəki Rayon Məhkəməsi yerləşir. Burada 250 nəfər, o cümlədən 42 hakim, 170-dən çox məhkəmə aparatı əməkdaşı və 35 ədliyyə işçisi çalışır. Kompleksin əsas binasında 16 məhkəmə iclas zalı - cinayət işlərinin baxıldığı 7 və mülki işlərin baxıldığı 9 zal fəaliyyət göstərir.





* * *

Noyabrın 4-də Şəkidə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 160 yerlik körpələr evi-uşaq bağçasının da açılış mərasimi olub. Ümumi sahəsi 3490 kvadratmetr olan bina üçmərtəbəlidir. Burada 8 qrup var. Uşaqlar üçün yataq otaqları, yeməkxana, tibb otağı, oyun və musiqi zalı, metodik kabinet və digər müxtəlif təyinatlı otaqlar, həmçinin binanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, attraksionlar quraşdırılıb. Körpələr evi-uşaq bağçasında 35 nəfər işlə təmin edilib.

Bu obyektlərin hamısının açılışında iştirak edən Prezident İlham Əliyev səfər zamanı “Malxal” müalicə-istirahət kompleksində tikinti işlərinin gedişi ilə də tanış olub.



## Bakı

Prezident İlham Əliyev noyabrın 11-də hərbi-hava qüvvələrinin “N” hərbi şəhərciyində yaradılan şəraitlə tanış olub. Hərbi şəhərcikdə əsgər yeməkxanası, yataqxana, anqarlar, təlim-məşq sinfi, tibb məntəqəsi inşa edilib. Hərbi hissənin ərazisində komanda məntəqəsi, qazanxana, elektrik yarımstansiyası yaradılıb.







Buradakı müasir texnika döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə imkan verir. Parkda həmçinin texniki xidmət, təmir və yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir.





Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi hissənin raket anbarına da baxıb. Dövlət başçısı S-300 PMU-2 Favorit Zenit Raket Briqadasına baxış keçirib, şəxsi heyətin praktik fəaliyyəti və döyüş növbətçiliyi ilə tanış olub.

***“Azərbaycan”***